# Milli humanitariyanın strateji istiqamətləri və ədəbiyyatın dövləşdirilməsinin yeni konsepsiyası

Akademik İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi ilə bağlı təqdim etdiyi yeni konsepsiya ədəbiyyatşünaslığımız tarixində çox önəmli bir hadisədir və böyük elmi əhəmiyyət daşıyır. Milli humanitar sahənin elmi ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanan bu konsepsiya ciddi əks- səda doğurub, mütəxəssislərin geniş müzakirəsinə səbəb olub. Bu konsepsiya akademik Muxtar Kazımoğlunun ifadəsi ilə desək, Azərbaycan ədəbiyyatının öyrənilməsi üçün "konseptual metodolji model" təqdim edir, akademik Nizami Cəfərovun fikrinə görə isə yeni ədəbiyyatşünaslar nəslinin yetişməsi üçün yeni imkanlar yaradır.

Böyük zəhmət, zəngin təcrübə və geniş təfəkkürün sayəsində hazırlanıb təqdim edilmiş konsepsiyaya ilk növbədə milli sosial-mədəni inkişaf kontekstində baxmaq lazımdır. Çünki millətin həyatında istiqlal yüksək mədəni inkişafın göstəricisidir və bu səviyyəyə yüksələn cəmiyyət özünün müstəqil humanitar strategiyasını müəyyənləşdirməlidir.

Müstəqil dövlətçiliyimizi bərpa etdiyimiz 1990-cı illərdən başlayaraq milli humanitar sahədə strateji istiqamətlərin müəyyənləşdirilməsi, mədəniyyətin, tarixin, ədəbiyyatın, folklorun xalqın öz mənafeyinə uyğun, millətin mənəvi inkişafı naminə öyrənilməsi zərurəti yarandı. Bu zaman milli köklərə qayıdış, müstəmləkə dövründə zədələnmiş mənəvi dəyər konseptlərinin və mədəni institutların bərpası ilə birlikdə geniş mənada milli mədəniyyət resurslarından doğru-düzgün istifadə etmək, konseptual əsaslar hazırlamaq və humanitar sahəni öz milli məcrasına yönəltmək üçün müvafiq prinsiplər müəyyənləşdirmək lazım gəldi. Belə bir şərait milli ideyanın və dəyərlərin önəmli daşıyıcılarından biri olan ədəbiyyat sahəsində də öz aktuallığı ilə müşahidə olundu.

Akademik İsa Həbibbəylinin uzun illər ərzində böyük zəhmətlə hazırladığı ədəbiyyatın dövrləşdirilməsi konsepsiyası milli humanitariyanın çox önəmli bir sahəsini istiqamətverici və özündə mükəmməl prinsipləri, metodoloji əsasları birləşdirən nəzəri materialla təmin etmiş oldu.

Bizə görə, bu konsepsiya təkcə ədəbiyyat tarixini dövrləşdirməklə məhdudlaşmır, eyni zamanda bütövlükdə milli mədəniyyətin dövrləşdirilməsi üçün ideoloji, məfkurəvi əsasları təmin edir. Bu mənada konsepsiya özündə tarixi, mədəniyyəti, ədəbiyyatı, fəlsəfəni birləşdirir, dövlət quruculuğunun mədəni əsaslarını tənzim edən milli məfkurənin təməl prinsiplərini özündə ehtiva edir, millət və mədəniyyət haqqında konseptual fikirlərin məcmusu şəklində meydana çıxır. Yəni konsepsiya təkcə ədəbiyyat tarixini dövrləşdirmir, həm də milli humanitar elmlərin öyrənilməsi, təbliği, tanıdılması, tədrisi, milli mənəvi quruculuğun idarəedici mexanizmlərinin müəyyənləşdirilməsi, humanitar sahə üçün dövlətçilik prinsiplərinin əsaslarının hazırlanmasını nəzərdə tutur.

Ədəbiyyat tarixinin hazırlanmasının yeni nümunəsi göstərir ki, indiyə qədər mövcud olan tədqiqatların ən müsbət təmayüllərinin nəticələrini özündə birləşdirən çağdaş Azərbaycan ədəbiyyatşünaslığı akademik İsa Həbibbəylinin elmi fəaliyyəti ilə yeni bir mərhələyə qədəm qoyur.

Görkəmli alim və ictimai xadim İsa Həbibbəyli ədəbiyyat araşdırmalarına gənclik illərində başlayıb. Məşğul olduğu tədqiqat mövzusu ilə bağlı ölkənin və bölgənin bir çox kitabxanalarında, arxivlərində ardıcıl araşdırmalar aparıb. Ədəbiyyatın müxtəlif məsələlərini ilkin qaynaqlardan öyrənib, ədəbi şəxsiyyətlərin həyat və yaradıcılığını ən dəqiq şəkildə və detallarına qədər araşdırıb və ədəbiyyat tarixini doğru məlumatlarla təmin edib. XX əsrin əvvəllərində yaranan Azərbaycan ədəbiyyatının və ədəbi həyatın izlərini Gürcüstanın, Ermənistanın arxivlərində araşdırıb, tarixi faktlarla ədəbiyyat tarixini xeyli dərəcədə zənginləşdirib.

Azərbaycan ədəbiyyatının tarixində XX əsrin əvvəlləri olduqca müxtəlif ədəbi proseslərin baş verdiyi və ədəbi məktəb və üslubların yarandığı zəngin bir dövrdür. Görkəmli alimin ilk tədqiqatları bu dövrün əsas səciyyəvi cəhətləri və şəxsiyyətlərinin öyrənilməsinə həsr olunmuşdur. "Romantik lirikanın imkanları" alimə milli şüurun oyanışında və milli ruhun yüksəlişində ciddi rol oynayan romantizm cərəyanının nümayəndələrini öyrənməyə imkan verməşdir. Mövzunun tədqiqi gənc alimin elə ilk tədqiqatında milli fikir cərəyanı ilə, onun müxətlif rəngarəng çalarları ilə tanış olmasına şərait yaratmışdır. Belə ki, milli ideya axınları, birlik düşüncəsi, Şərqi və İslam dünyasını düşündürən problemlər, türkçülük, turançılıq, bayrağımızdakı simvolika, islam, müasirlik və bu əsasda yaranan ədəbiyyat hörmətli alimin qələmindən keçərək ədəbiyyatşünaslıq tariximizdə öz layiqli yerini tutmuşdur.

Bizi deyib gələn Molla Nəsrəddin xocanın adını daşıyan yazıçı, jurnal, üslub və ədəbi məktəbin əsas siması olan Mirzə Cəlil alimin "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" adlı fundamental tədqiqatı ilə ədəbiyyatşünaslığımıza yeni elmi kontekstdə daxil olub.

Görkəmli alimin Məmmədhüseyn Şəhriyar, Məmməd Araz, Çingiz Aytmatov, Sabir Rüstəmxanlı, Rəşad Məcid haqqında kitabları, Anar, Nəriman Həsənzadə, Elçin, Yusif və Vaqif Səmədoğlular, Kamal Abdulla, Zəlimxan Yaqub, İsa İsmayılzadə, Nurəngiz Gün, Rüstəm Behrudi, Yunus Oğuz, Əjdər Ol, Səyyad Aran və başqaları haqqında məqalələri ədəbi şəxsiyyətlərin və onların yaradıcılığının səciyyəvi cəhətlərinin öyrənilməsi üçün dəyərli elmi qaynaqdır.

Akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatının bütün dövrlərini diqqətlə araşdırmış və həm dövrlərin xarakterini, səciyyəvi cəhətlərini öyrənmiş, həm də ayrı-ayrı ədəbi şəxsiyyətlərin yaradıcılığı ilə bağlı samballı əsərlər yazmışdır. Alimin hər bir əsəri Azərbaycan ədəbiyyat tarixinin bir dövrünü, bir mərhələsini, bir cərəyanını, bir şəxsiyyətini xarakterik xüsusiyyətləri ilə təqdim edir. Bu baxımdan alim Azərbaycan ədəbiyyatını bütöv şəkildə araşdırıb və ədəbiyyat tarixini dövrləşdirmək üçün ən optimal prinsipləri müəyyənləşdirib.

Xüsusilə, az öyrənilmiş dövr kimi ədəbiyyat tariximizdə elmi şərhini gözləyən müstəqillik dövrünü alim həmmüəllifi olduğu iki cildlik "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" (2016) kitabı ilə ədəbiyyat tarixinə daxil etmişdir. Beləliklə, alim Azərbaycan ədəbiyyatının ən qədim dövründən ən yeni dövrünədək olan bütün materialları öz araşdırmalarında tam şəkildə əhatə etməyə nail olub.

Akademik İsa Həbibbəylinin ədəbiyyat konseptində müsbət və nikbin elementlərin aşkarlanması, onların cəmiyyət üçün didaktik aspektlərinin daha aydın şəkildə təqdim edilməsi xüsusi yer tutur. Müsbət qəhrəman və müsbət başlanğıc ideyasının bütün dövrlərin ədəbiyyatında ümumi və ortaq bir metodoloji əsasdan irəli gəldiyi izah edilir. Alim ədəbiyyatı bütöv bir şəkildə təqdim edir və burada ədəbi nəsillər, ədəbi əsərlər və ədəbi cərəyanlar arasında təmas və ünsiyyət məqamları aşkarlanır, vahid ədəbi harmoniyanı təmin edən ədəbi fenomen –Azərbayvan ədəbiyyatı aydınlaşdırılır. XX əsrin əvvəlləri, ortası və sonları, Cümhuriyyət, Sovet və Müstəqillik dövrləri arasında da ortaq konseptlər aşkarlanır. Abbas Səhhət də, Müşfiq də, Səməd Vurğun da, Bəxtiyar Vahabzadə də, Məmməd Araz da alimin ümumi ortaq konsepti aşkarlama metoduna görə ideya və mövzu baxımından bir ədəbi prizmada izah oluna bilir. Bunların hər biri eyni bir vətəni-Azərbaycanı vəsf edirlər.



Akademik İsa Həbibbəylinin ədəbiyyat tarixinin dövrləşdirilməsi ilə bağlı hazırladığı konsepsiyada bu konsepsiyaya qədərki araşdırmalar, axtarış və mülahizələrin hər biri ətraflı şəkildə təhlil olunub. Burada Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabını, Abdulla Sur, İsmayıl Hikmət, Yusif Vəzir Çəmənzəminli, Əmin Abid, Salman Mümtaz, Fuad Köprülü, Bəkir Çobanzadə, Həmid Araslı, Feyzulla Qasımzadə, Cəfər Xəndan, Mir Cəlal Paşayev, Firidun Hüseynov, Əlyar Səfərli, Xəlil Yusifli, Bədirxan Əhmədov, Yaqub Babayev, Təyyar Salamoğlu və başqa müəlliflərin tədqiqatlarındakı təsnifat təcrübəsi də təhlil olunub.

Mövcud təcrübədə coğrafi, tarixi, ideoloji prinsiplər üzrə təsnifatların aparılmasını diqqətə alan alim bu prinsiplərin yetərli olmadığı qənaətinə gəlir. 1928-1980-ci illər arasındakı akademik nəşrlər XX əsrin əvvəllərində fəaliyyət göstərən və bizim milli taleyimizdə və ədəbiyyat tariximizdə önəmli yeri olan ədəbi şəxsiyyətlərin natamam təmsili baxımından da qüsurlu sayılır. Şübhəsiz ki, vahid konsepsiya yetərsizliyi bütün mövcud nəşrlərdə özünü göstərir. Bu baxımdan hörmətli akademikin təqdim etdiyi konsepsiya ədəbiyyatı öz gerçək təbiətinə uyğun bir şəkildə təsnif etmək üçün əlverişli imkan yaradır.

Bu konsepsiyada və yeni ədəbiyyat tarixində əsas prinsipər belə müəyyənləşdirilir:

1. Azərbaycançılıq məfkurəsi. Yeni konsepsiyanın ən əsas və çox vacib prinsiplərindən biri məfkurə məsələsidir. Müstəqil dövlət olaraq bizim əsas məfkurəmiz azərbaycançılıqdır. Bu məfkurənin ilkin ünsürləri XX əsrin əvvəllərindən gəlir. 1918-ci ildə qurulan Azərbaycan Cümhuriyyəti ilə artıq Azərbaycan siyasi termin və anlayış kimi tarixə və milli yaddaşa daxil olur. Azərbaycançılığın müasir məfkurə kimi təqdimi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Şübhəsiz ki, ədəbiyyat da, ədəbiyyatı öyrənən elm də bu məfkurənin yönləndirdiyi yolla getməyə başlayır. Yeni yazılan və yeni konsepsiyanın işığında dövrləşdirilən ədəbiyyat tarixi də bu məfkurə əsasında hazırlanmalıdır. Yeni konsepsiya ədəbiyyat tarixinə münasibətin də məfkurə əsasını müəyyənləşdirmiş olur.

2. Sivilizasiya faktoru. Sivilizasiya mədəniyyətlərin inkişafına, o cümlədən ədəbiyyata, onun ideya və məzmununa ciddi təsir göstərən amillərdən biridir. Azərbaycan ədəbiyyatı da cəmiyyətimizlə birlikdə müxtəlif sivilizasiyalardan keçib müasir dövrə qədər gəlmişidir. Ədəbiyyatımıza ciddi təsir göstərən faktorlardan biri İslam sivilizasiyasıdır. Alimin fikrinə görə, "İslam təlimindəki mənəvi bütövlük və humanizm ideyaları, maarifçiliyə böyük dəyər verilməsi yazıçıların dünyagörüşünün inkişafında mühüm yer tutmaqla bərabər, həm də onların bədii yaradıcılığında elmi cəhətdən əsaslandırılmış milli və bəşəri ideallarıın xüsusi önəm daşımasına meydan açmışdır".

Müstəmləkə şəraitinə düşdükdən sonra sürətlə dini dəyərlərin zədələnməsi baş verir. Sosial sıxıntılar mənəvi dəyərləri əzir və insanlar dəyər konseptlərini qoruya bilmirlər. Müstəmləkənin, müstəqil dövlətsizliyin vurduğu ən böyük zərər də budur. Həmin dövrdə ədəbiyyat bu dini deqradasiyanı özündə əks etdirən əsərlərlə çıxış edir. "Allaha rüşvət", "Köpəyə ehsan" kimi satirik ruhlu əsərlərdəki sarkazmların sırasına dirisi ölüsündən də ölü olan bir "Ölülər" cəmiyyətinin bədii modeli daxil olur. Ədəbiyyat sivilizasiyaya qarşı mühafizəkar olanda da, onu dəstəkləyəndə də motivlənmənin və obrazlaşmanın yeni formalarını və tiplərini yaradaraq bədii zənginliyini artırmış olur. Sivilizasiya faktorunun, dinin və təriqətlərin təsirləri orta əsrlər dövrü Azərbaycan ədəbiyyatında özünün dərin izlərini qoyub. Xaqani, Nizami, Nəsimi, Füzuli yaradıcılığında Quran motivlərinin, islam görüşlərinin elmi şərhini verən tədqiqatlarla ədəbiyyat tariximiz təmin edilməyib. XIX əsrdə dini fanatizmin, XX əsrin sovet dövründə ateizmin bədii ifadəsini verən əsərlərin təsirləndiyi faktorlarla birlikdə təhlili ədəbiyyat tarixinə milli məfkurədən keçərək daxil olmayıb. Yeni konsepsiya bizə ədəbiyyatımızı sivilizasiyaların təsiri ilə əlaqədə təhlil edərək tarixləşdirməyə imkan verir.

3. Ədəbi-tarixi prosesin reallıqları. Akademik İsa Həbibbəylinin təqdim etdiyi konsepsiyada ədəbi-tarixi proses bir prinsip olaraq götürülür. Bu prinsip ədəbiyyat tarixinin dəyərləndirilməsində yazıçı və zaman kontekstində yanaşmanı diqqət mərkəzinə gətirir. Biz ədəbiyyata hər zaman vahid bir yanaşma ilə baxa bilmərik. Müəllif və əsər münasibətində ətraf, müəllifin əhatə olunduğu gerçəklik və ədəbi mühit də ciddi faktordur. "Dust bipərva, fələk birəhm, dövran bisükun" olanda, fələyin gərdişi ilə hər dövr "bir aşiqin dövranı" olanda və başqa bu kimi sıxıntılı dönəmləri ədəbiyyat "keçər dövran belə qalmaz" deyərək keçir. Ona görə də içində dövr, zamanla yanaşı, hakimiyyət, siyasət, ideologiya, din, təriqət, hüquq, qanun kimi ciddi faktorları da daşıyan tarix ədəbi prosesi müxtəlif aspektlərdən yönləndirir. Belə şəraitdə ədəbi proses də tarixin bir parçasına, onun bədii kolliziyasına çevrilmiş olur.

*(Davamı var)*

Xəlil, Ağaverdi
*filologiya üzrə fəlsəfə doktoru, AMEA Folklor İnstitutu Mərasim Folkloru şöbəsinin müdiri*